# ABŞERONUN NEFTLƏ ÇİRKLƏNMİŞ TORPAQLARINDA BAŞ VERƏN PROSESLƏRİN TƏDQİQİ

**İradə Əliyeva**

*Bakı Dövlət Universiteti, nareko317@gmail.com*

Abşeronun neft və neft məhsulları ilə çirklənmiş torpaqlarının fitotoksik xüsusiyyətləri öyrənilmişdir. Tədqiqat işində aşağıdakı vəzifələr yerinə yetirilmişdir: torpaq nümunələrinin seçilməsi, model eksperimentlərin aparılması, sınaq bitkinin böyümə və inkişafının dəyişməsinə neft və neft məhsullarının təsirinin araşdırılması. Model təcrübələr üçün torpaq nümunələri yollardan, boru kəmərlərindən və elektrik xətlərindən uzaq olan təmiz fon sahələrindən - Binəqədi qəsəbəsinin boz-qonur yarımsəhra, Saray qəsəbəsinin açıq-şabalıdı torpaqlarından nümunələr götürülmüşdür.

Tədqiq olunan torpaqların əsas xüsusiyyətləri cədvəldə göstərilmişdir. Hər konteynerə 10 qr noxud toxumu səpilmişdir.

**Cədvəl**. Abşeron torpaqlarının fiziki-kimyəvi və bioloji xüsusiyyətləri

| Torpağın növü | Qranulometrik tərkib | Humus, % | pH | Cəmləşdirilmiş N | $P_2O_5$ | $K_2O$ | Katalazanın aktivliyi, мл $O_2$/г |
|---|---|---|---|---|---|---|---|
| | | | | мг/100 г | | | |
| Boz-qonur yarımsəhra | Qumlu gil | 1,0 | 8,4 | 1,1 | 1,74 | 25,3 | 2,36 |
| Açıq şabalıdı | Orta gilli | 1,5 | 8,7 | 1,5 | 3,58 | 36,1 | 7,13 |

Boz-qonur yarımsəhra və açıq şabalıdı torpaq nümunələri (quru kütləsi 5 kq) vegetasiya qablarında (plastik qutular ölçüsü 50x15x10) ümumi 60% distillə edilmiş su ilə nəmləndirilirmişdir. Torpağın səth hissəsi çirkləndirilmişdir. Neft və neft məhsullarının qatılığı 2,5, 5 və 10% təşkil etmişdir. Təcrübə boyu temperatur $22^oC \pm 10^oC$ səviyyəsində saxlanılmış, optimal nəmləndirmə 60%±25% və 16 saat günəş işığı verilmişdir. Laborator təcrübələr üç dəfəyə aparılmışdır.

Tədqiqat nəticəsində sübut edilmişdir ki, Abşeron yarımadasının neft və neft məhsulları ilə çirklənmiş torpaqları sınaq bitkilərinin böyüməsinə və inkişafına mənfi təsir göstərir. Nəzərə almaq lazımdır ki, Abşeronun boz-qonur yarımsəhra torpaqlarında ağ neft və mazutun aşağı konsentrasiyası bitkidə zoğların və köklərin uzunluğuna cüzi artım göstərir. Abşeron yarımadasının iki torpaq növü ilə aparılan tədqiqatlar göstərmişdir ki, quraq ərazilər fitotoksiki baxımından neft və neft məhsulları ilə çirklənməyə davamlı deyil.